# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 12 sentyabr tarixli 94 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük ekspertizasının aparılması Qaydaları"nda dəyişikliklər edilməsi barədə**

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 232 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük ekspertizasının aparılması Qaydaları"nda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 1 mart tarixli 72 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 12 sentyabr tarixli 94 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük ekspertizasının aparılması Qaydaları"nın 5.8-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"5.8. Ekspert qarşısında qoyulan suallar onun xüsusi biliyindən kənara çıxdıqda, yaxud təqdim olunan materiallar və sənədlər rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda, ekspert rəy verməkdən imtina edir.".

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri:** **Ə.Baxşıyev**

«19» mart 2019-cu il

№ 30